

*Maşallah Məftun*

# Sən oldun, xınalı əllərin dostu, Sən oldun, sən oldun, yenə sən oldun!

## AĞLAMA

*Ana sevgisiylə səhərini açan, axşamını batıran Nurəngiz Gün yadigarı Jalə Əliyevaya təsəlli üçün...*

O, buzları əridən alovlu şair idi,
O, bir rəvayət idi, o bir əfsanə idi...
Fikirləri işıqlı, baxışı da diriydi,
Bircəsinin-bircəsi, yeganəsi, ağlama!

Ürəyi paramparça, Xocalı yarasının,
Təbriz -hicran dağının, göylərin sonasının,
Bir Jalə dünyasının, bir Müjgan yanasının,
Ləli, cəvahiratı, dürdanəsi, ağlama!

Neçə minilliklərdir Ay da bədirlənibdi,
Yersiz, duzsuz, məntiqsiz sözlər qiymətlənibdi,
Gözyaşını oxumaq bu gün çətinləşibdi,
Bir danənin kül olmuş birdanəsi, ağlama!

Narahatlıq vermədin nə doğmaya, nə yada,
Narahatlıq vermədin nə tanışa, nə dosta.
Nazik kirpiklərini sıxaraq asta-asta,
Başına dolandığı pərvanəsi, ağlama!

Analı bir dünya var, yaşar öz ürəyində,
O dünya sənlə yaşar, coşar söz ürəyində,
Aləm bilir çətin ki, sönər köz ürəyində,
Şahanə bir zirvənin şahanəsi, ağlama!

Sən - son ümiddən doğan eşqin təkcə varısan,
Sən Tanrının gözəli, sən Tanrının yarısan,
Sən ruhu dilimlənən bir könül baharısan,
Namərdlər dünyasının mərdanəsi, ağlama!

O sözün özü idi, o - özü sözün idi,
Dili bayatı dili, haqq sözü düzün idi,
Yurda həsrətlə baxan nisgilli gözün idi,
Bircəsinin-bircəsi, nişanəsi, ağlama!

Haqdan gələn qismətin dünya gələ, itənməz,
İblis mələk donunda arzusuna yetənməz,
Bağçalarda, bağlarda qanqal, tikan bitənməz,
Güllərin, çiçəklərin rayihəsi, ağlama!

Haqqı nahaqqa verən acı dəhşətdi dünya,
Kimə dəli bir sevda, kimə sərvətdi dünya,
Kimə şirin bir röya, kimə sərvətdi dünya,
Xan əminin "Qarabağ şikəstəsi", ağlama!

Sözünlə, idrakınla, qürurunla bəllisən,
Səni sən edənlərin ön sırada birisən,
Sən - ölümü, zülümü görmüş dağlar çənisən,
Nurəngizin bəstəsi, növrəstəsi, ağlama!

Bir nəslin yadigarı sənsən - ümüd barısan,
Kiminsə son ümüdü, atəşisən, nurusan,
Axı sən çox güclüsən, bütövlüyü qoru sən,
Nəhəng çayların axan şəlaləsi, ağlama!

Ey bu həyatı sevib, görə-görə gələn dost,
Yurdunun bayramında, sevinən dost, gülən dost,
Dirisi ilə diri, ölüsüylə ölən dost,
Zamanın dil-dil ötən səməndəri, ağlama!

Yurdumuzun sabahı, kimin gözünə oxdu,
Hələ ki, şübhələr var, hələ ki, güman çoxdu,
Yer-göy qan içindədi, onsuz ağlayan çoxdu,
Nurəngizin saf eşqi, əfsanəsi, ağlama!

Məftun bu möcüzəni göyün üzünə yazdı,
Eşqini, gileyini ayın özünə yazdı,
Ulduzların nağılın "ANA" sözünə yazdı,
Anasının şəkəri, divanəsi, ağlama!

5 oktyabr 2018.

## SƏN OLDUN

*Nurəngiz Günün ölməz xatirəsinə...*

Sən oldun, günəşin, güllərin dostu,
Sən oldun, ayların, illərin dostu,
Sən oldun, xınalı əllərin dostu,
Sən oldun, sən oldun, yenə sən oldun!

Ayrı bir aləmdən gələn sən oldun,
Kövrələn biz olduq, gülən sən oldun,
Bizi bizdən yaxşı bilən sən oldun,
Sən oldun, sən oldun, yenə sən oldun!

Tanrı göylərində mələk oldun sən,
Sevgi qanadında dilək oldun sən,
Ürəklə yaşadan, ürək oldun sən,
Sən oldun, sən oldun, yenə sən oldun!

Bircə sözümüzdən bizləri duyan,
Nə vaxtdır yatmısan, bir diksin, oyan!
Jaləni, Müjganı, kimsəsiz qoyan,
Sən oldun, sən oldun, yenə sən oldun!

2014

## BIR TÜRKÜ DE...

*Nurəngiz Günə*

Ehey yol gedənim
Hara gedirsən?..
``Çiynində günəş tayası``,
Könlündə tanri sevgisi...
Bir türkü de...
Bir türkü de...

Bizi bir yerə yiğ,
Lampa işıqiı toyumuz gəlir,
Ellər elindən boyumuz gəlir,
Bəylər -bəyindən hoyumuz gəlir,
Bir türkü de...
Bir türkü de...

Susuz səhram sulanacaq,
Dağim,düzüm şumlanacaq,
Dünya qandan qurtulacaq.
Bir türkü de...
Bir türkü de...

Ulu xaqanların nəfəsi,
``Haqq`` deyənlərin
Ölməz haqq səsi,
Göylərdən səsi gələn
Ulum-ulusum...
Bir türkü de...
Bir türkü de...

Ərənlərin nəriltisini,
Atlarin kişnərtisini,
Nalinin cingiltisini,
Eşidirşənmi...
Eşidirsənmi...
Bir türki de...
Bir türki de...

Çiynində günəş tayasi...
Ozan ərən , bizdən küsdü.
Təzə mənzilinə tələsdi...
Bir türkü de...
Bir türkü de...

Haqqa pərçimlənib yola çıxanim,
Haqqin zirvəsindən
Haqqa baxanım.
Şimşək qanadlim
Sınmaz inadlım...
Bir türkü de...
Bir türkü de...

Dünya köhnə,səndə köhnə,
Zaman bu gün köhnə səhnə,
-Xanə-xərab bir bəhanə...
Bir türkü de...
Bir türkü de...

Gündoğandan doğan Günüm,
Yerdən-göydən yağan Günüm,
Zülmətləri boğan Günüm,
Ölməz günüm,ölməz günüm,
Bir türkü de...
Bir türkü de...

Ruhunu küləklər çaldı,
Zaman bizlərdən bac aldı,
Şerimiz vaxtsız qocaldı,
Bir türkü de... Bir türkü de..

## ERMƏNİSƏN Kİ, ERMƏNİ...

*Birinci Pyotrun vaxtında ermənilərin bir şüarı var idi: "Öldürüb talamaq, talayıb öldürmək".*

Yırtıq ayaqqabıma,
Gözün düşdü,
verdim,
Sən də aldın.
Nə olsun ki,
yenə pis günə qaldın...
Başqa adın yox,
ermənisən ki, erməni...